# Bələdiyyələrə nəzarət prosesi təkmilləşdirilir

Fevralın 18-də Milli Məclisin Regional məsələlər komitəsinin iclası keçirilib. Onlayn formatda keçirilən iclası açan komitə sədri Siyavuş Novruzov gündəlik barədə məlumat verib. Bildirib ki, iclasın gündəliyinə 3 məsələ - Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın illik məruzəsi və Gəncə şəhərinin inzibati ərazi bölgüsündə qismən dəyişiklik edilməsi ilə bağlı iki qanun layihəsi daxil edilib.

Əvvəlcə "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin həyata keçirilməsi ilə bağlı illik məruzə"ni müzakirəyə çıxaran komitə sədri bildirib ki, 2021-ci il də Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsləri ilə Azərbaycanın nailiyyətlərinin davam etməsi ilə əlamətdar olub.

Dövrün yeni çağırışlarına uyğun olaraq regional idarəetmə sahəsində həyata keçirilən tədbirlərin də yeni mexanizmlərin müəyyənləşdirilməsi baxımından mühüm əhəmiyyətə malik olduğunu deyən komitə sədri bələdiyyə idarəçiliyi sahəsində uğurların qazanıldığını qeyd edib. Bu cəhətdən bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın komitənin müzakirəsinə təqdim olunan məruzəsində də kifayət qədər müsbət tendensiyaların olduğu bildirilib.

Komitə sədri ötən il bələdiyyələrin sosial məsələlərin həllində fəal iştirak etməsini, şəhidlərimizin xatirəsinin əbədiləşdirilməsi, şəhid ailələrinin və müharibə iştirakçılarının rifahının yaxşılaşdırılması istiqamətində gördükləri işləri yüksək dəyərləndirib. Qeyd edib ki, bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin səmərəliliyinin artırılması, onların fəaliyyətinin təşkilinə kömək və metodoloji yardım tədbirlərinin gücləndirilməsi istiqamətində ciddi iş aparılıb.

Komitə sədri qeyd edib ki, 2021-ci ildə yerli özünüidarəetmə ilə bağlı normativ-hüquqi tənzimlənmənin təkmilləşdirilməsi, qanunvericilikdəki boşluqların aradan qaldırılması istiqamətində tədbirlər davam etdirilib.

Sonra ədliyyə nazirinin müavini Vilayət Zahirov bildirib ki, keçən il yerli özünüidarəetmənin inkişafı, bələdiyyə fəaliyyətində qanunçuluğa əməl edilməsi istiqamətində tədbirlər Ədliyyə Nazirliyinin diqqət mərkəzində saxlanılıb.

Vilayət Zahirov nazirliyə daxil olan 80359 bələdiyyə aktının, o cümlədən bələdiyyələrin fəaliyyəti ilə bağlı 4504 müraciətin araşdırılması ilə bağlı görülən müvafiq tədbirləri, aparılan təhlilləri deputatların diqqətinə çatdırıb. Qeyd olunub ki, ötən dövrdə korrupsiya hüquqpozmalarına şərait yaradan hallar müəyyən edilərək onların aradan qaldırılması üzrə tədbirlər görülüb, bələdiyyələrin maarifləndirilməsi davam etdirilib, bələdiyyə işçilərinin peşəkarlığının artırılması diqqət mərkəzində saxlanılıb.

Bildirilib ki, yerli özünüidarəetmə sahəsində fəaliyyətin əlaqələndirilməsi istiqamətində Milli Məclislə sıx əməkdaşlıq aparılıb və bələdiyyələrlə bağlı deputatlar tərəfindən səsləndirilən təklif və fikirlər öyrənilib, onların nəzərə alınması üzrə tədbirlər görülüb.

Sənədin müzakirəsində deputatlar Səttar Möhbalıyev, Elşən Musayev, Səbinə Xasayeva, Kamran Bayramov, Əliabbas Salahzadə, Cavid Osmanov, Aqil Məmmədov, Milli Məclis Aparatının Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsinin müdiri Hacı Mirhəşim Seyid, Azərbaycan Şəhər Bələdiyyələrinin Milli Assosiasiyasının sədri Təmraz Tağıyev, Azərbaycan Kənd Bələdiyyələrinin Milli Assosiasiyasının sədri Əli Mehdiyev, "Yerli İdarəetməyə Yardım" İctimai Birliyinin sədri Vüsal Mirzəyev, Azərbaycan Şəhər Bələdiyyələrinin Milli Assosiasiyasının icraçı katibi Tofiq Həsənov söz alıblar.

Çıxış edənlər bələdiyyələrin fəaliyyətinin səmərəliliyinin artırılması, nüfuzunun yüksəldilməsi, maliyyə dayanıqlılığının gücləndirilməsi ilə bağlı fikirlərini bildiriblər, bələdiyyələrin fəaliyyətinin aktual məsələləri ilə bağlı rəylərini səsləndiriblər.

Geniş fikir mübadiləsindən sonra deputatlar bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın illik məruzəsini Milli Məclisin müzakirəsinə tövsiyə ediblər.

Gündəliyin digər iki məsələsi - "Gəncə şəhərinin inzibati ərazi bölgüsündə qismən dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş) və "Bələdiyyələrin əraziləri və torpaqları haqqında" Azərbaycan Respublikasının Qanununa əlavə edilmiş "Azərbaycan Respublikasında bələdiyyələrin siyahısı"nda dəyişiklik edilməsi barədə qanun layihəsi (ikinci oxunuş) barədə məlumat verən komitə sədri Siyavuş Novruzov qeyd edib ki, iclasa Gəncə şəhərini təmsil edən deputatlar da dəvət olunub. Gəncə şəhərinin inzibati ərazi bölgüsündə təklif olunan dəyişikliklərə əsasən, idarəetmənin təkmilləşdirilməsi məqsədilə şəhərin tərkibindəki Kəpəz və Nizami rayonları ləğv edilərək Azərbaycan Respublikasının ərazi vahidlərinin Dövlət reyestrindən çıxarılır. Bələdiyyələrin siyahısına təklif olunan dəyişiklik də bununla əlaqədardır.

Qanun layihələrinin müzakirəsində Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev (Gəncəni təmsil edir), deputat Kamran Bayramov təklif olunan dəyişikliklərlə bağlı fikirlərini səsləndiriblər.

Müzakirələrin sonunda hər iki qanun layihəsi ikinci oxunuşda Milli Məclisin plenar iclasının müzakirəsinə tövsiyə edilib.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2022.-19 fevral.- S.4.